2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Samir Tağıyevin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 noyabr 2015-ci il tarixli 122 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 4 noyabr 2015-ci il

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 68 saylı Cəlilabad kənd seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış Qurbanov Davud Hadıbək oğlu 3 noyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək seçkilərdə iştirak etməkdən imtina barədə dairə seçki komissiyasına edilmiş müraciətlə bağlı həmin komissiyanın qanunsuz hərəkətsizliyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Samir Tağıyev həmin müraciəti nəzərdən keçirərkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Ərizəçi D.H.Qurbanov 4 noyabr 2015-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək şikayətə 30 oktyabr 2015-ci il tarixdə baxıldığını və müvafiq qərarı aldığını bildirmiş, bununla da onun iddia etdiyi qanunsuz hərəkətsizlik dairə seçki komissiyası tərəfindən aradan qaldırılmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6- cı, 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 68 saylı Cəlilabad kənd seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış Qurbanov Davud Hadıbək oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 noyabr 2015-ci il tarixli 122 saylı müraciətin araşdırılmasına xitam verilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Samir Tağıyev